# QARABAĞDA "ATLI-İTLİ" XALÇALARIN YARANMA TARİXİ VƏ ONLARIN BƏDİİ XÜSUSİYYƏTLƏRİ



**Arzu Zeynalova,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət və OOT kafedrasının müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, xalçaçı rəssam, Rəssamlar İttifaqının üzvü*
*e-mail: arzu.zeynalova.1987@mail.ru*

**UOT**: 746; 930.85

**Xülasə.** *Tarixi memarlıq nümunələrində, yaşayış binalarında, mülklərin və Qarabağın xan saraylarında divar və tavanların dizaynına xüsusi diqqət yetirilirdi. O dövrdə divarların süjetli xalçalarla bəzədilməsi Azərbaycanda, o cümlədən Qarabağda xüsusilə dəbli və məşhur idi. Məqalədə divar xalçaçılığının yaranma tarixindən, "Atlı-itli" xalçaların bədii xüsusiyyətlərindən danışılır.*

***Açar sözlər:*** *zoomorf, süjet, Qobustan, "Atlı-itli", Qarabağ.*
***Key words:*** *zoomorphic, plot, Gobustan, "Atlı-itli", Karabakh.*
***Ключевые слова:*** *зооморфный, сюжет, Гобустан, «Атлы-итли», Карабах.*

Azərbaycan xalçalarında saysız-hesabsız zoomorf motivlərə rast gəlinir. Bunlardan at, it, dəvə, qoç, maral, şir, pişik, pələng, quş və s. kimi təsvirlərə daha tez-tez təsadüf olunur. Bu obrazların hər birinin ayrılıqda təsviri xalçalarda təsadüfən öz əksini tapmamış və onların tarixi, mifoloji kökləri mövcuddur. Heyvan rəsmlərinin ilk nümunələri ilə hələ qədim dövrlərə aid abidələrdə rastlaşırıq ki, bununla da alimlərin fikrincə, totemizm dövrü əsas amillərdən hesab edilə bilər. Məlum olduğu kimi, qədim zamanlarda insanlar müxtəlif heyvanlara tapınaraq öz əcdadlarının həmin heyvanlarla qohumluq əlaqəsi olduğuna inanırdılar. Hətta Azərbaycanın rayon və kəndlərində heyvan kultu ilə əlaqədar olan adlar bugünədək saxlanılmaqdadır. Azərbaycanda Qurdlar, Quşçular, Qaraqoyunlular, Ağqoyunlular, Qazqulu, Qaraqurdlu, Tülkülü, Aşağı Fil-fili, Bağalı, Arıqıran, Ağ cüyür, Ceyrançöl, Atlıxan, Qoyun binası, Qazlı, Kəpənəkçi, Dəliquşçu, Bülbülə kimi adların olması bunu bir daha sübuta yetirir [1].

Təbii ki, ovçuluq dövründən başlayaraq, insanlar heyvanların ətindən istifadə edərək onlarla qidalanmışdılar. Lakin elə heyvanlar da olmuşdur ki, onların totem olaraq ətləri heç zaman yeyilməmişdir. Məsələn, ilana tapınan tayfalar onun ətini yeməzdilər. Buna bənzər bir çox nümunələr gətirmək olar. İlk insan yaranandan bugünədək ovçuluğun əhəmiyyəti yüksək qiymətləndirilmişdir. Bakı ətrafı Qobustan qaya təsvirlərində, Naxçıvan Muxtar Respublikasının Gəmiqaya təsvirlərində, eləcə də Kəlbəcər rayonu qaya təsvirlərində yüzlərlə heyvan rəsmləri görmək olar. Qobustan qaya təsvirlərində qoç (yazılı daş 25), at, maral (yazılı daş 9), ilan, şir (yazılı daş 42), it (yazılı daş 47), leylək (yazılı daş 63),

inək (yazılı daş 66-49) və s. heyvan rəsmlərini izləmək olar [2].

Yuxarıda qeyd etdiyimiz kimi, heyvan rəsmlərinə Gəmiqaya təsvirlərində də rast gəlinir. Arxeoloq Nəcəf Müseyiblinin yazdığı kitabda 1500 təsvirin olduğu qeyd olunur ki, bunlar da "Qaranquş Nəbiyurdu" və "Göllər" adlı qayalarda yer tutmuşdur. Ən çox burada rast gəlinən heyvan rəsmlərindən keçi, maral, öküz, it, fantastik heyvanlar, quşlar və saysız-hesabsız ilan təsvirləri diqqəti cəlb edir [5, s.109].

Təsadüfi deyildir ki, Azərbaycan incəsənətində, o cümlədən xalçaçılıq sənətində də heyvan təsvirlərinə və ov səhnəsinə rast gəlirik. Bu baxımdan öz orijinallığı ilə seçilən və xovsuz xalçalar siyahısına daxil olan *şəddələr* mühüm əhəmiyyət kəsb edir. Onların ən gözəl nümunələri Azərbaycan Dövlət Xalça Muzeyində, Bakıda yerləşən Milli İncəsənət Muzeyində və Milli Tarix Muzeyində saxlanılır. Lakin bu nümunələr yalnız XIX əsrin sonu, XX əsrin əvvəllərinə aiddir. Çox güman ki, onların daha qədim, yəni XVIII əsrə aid olan nümunələri Vaşinqtonun Tekstil Muzeyində, Kiyevin İncəsənət Muzeyində və Moskvada Şərq Xalqlarının İncəsənəti Muzeyində saxlanılır.

Ov mövzusunun mərasim olmasını sübut edən faktlardan biri də Azərbaycanın Təbriz qrupuna aid XVI-XVII əsr Təbriz rəssamları tərəfindən, əsasən də Sultan Məhəmməd tərəfindən yaradılmış iki hissədən ibarət böyük ov səhnəsini özündə əks etdirən miniatür əsərdir. Səfəvi dövrü hakimlərinin ov mərasimləri həmin bu miniatürün mövzusunu təşkil edir [3, s.72, 73, 74].

Xalçaçılıq sənəti hər bir xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xalçalar yaşayış evlərinin və digər binaların divar bəzəklərinin döşənməsində istifadə edilir. Belə yüksək estetik əhəmiyyət kəsb edən və heyvan rəsmləri ilə bəzədilmiş xalça növlərindən biri də "Atllı-itli" adlanan qədim xalçaçılıq nümunəsidir.

"Atlı-itli" xalçaların nümunələri Azərbaycanın bütün muzeylərində, o cümlədən Azərbaycan xalçası və Dekorativ-Tətbiqi Sənət Muzeyində, Azərbaycan Milli Tarix Muzeyində və Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılmaqdadır. Təkcə Azərbaycan Dövlət Tarix Muzeyində dörd ədəd "Atlı-itli" xalça növü mövcuddur. At və itlərin kompozisiyada hərəkət edən yangörünüşlü rəsmləri, atların başıaşağı və ayaq üstə, itlərin başları arxaya baxan, oturmuş vəziyyətdə olan təsvirləri əksər Qarabağ xalçalarında eynidir. Bu da onu göstərir ki, vaxtı ilə hansısa etalon at və it təsvirindən götürülmüş, xalça sənətində bir toxucu tərəfindən tətbiq edilmiş və digər yaradılan nümunələrdə də kompozisiyanın quruluşunu dəyişsələr belə, heyvanların görünüşünü saxlamışlar. Tarix Muzeyində saxlanılan "Atlı-itli" xalçalar bu baxımdan maraq kəsb edir. Muzeydə saxlanılan "Atlı-itli" xalçanın arasahə fonu qırmızı rəngdədir. Divar xalçası olduğu üçün xalçanın uzunluğu daha böyük olub, eni kiçikdir.



***Azərbaycan Milli Tarix Muzeyi. "Atlı-itli" xovlu, yun. 130x200 sm. divar xalçası***

Arasahənin yuxarı hissəsində yerləşdirilmiş at fiqurları gözəl bəzəklər ilə daha da zənginləşdirilmişdir. Atların boynunun aşağı hissəsində xalçadan toxunmuş qotazlı sinəlik, kürəyində kiçik naxışlı xalça və naxışlı örkən təsvir edilmişdir ki, bununla da atlar daha da füsunkar görüntü almışdır. Xalçada üç at təsviri verilmişdir. Mərkəzdə olan atın rəngi başdan-başa ağdır. Öndə və arxada olan atlar isə tünd qara rəngdədir. Lakin onların heyvan bəzəkləri dəyişmir. Xalçanın sağ tərəfində ağ rəngli daha bir atın başı və ayaqları görünür. Hər dörd at yangörünüşlü olub, hərəkətli vəziyyətdə təsvir edilmişdir. Onlar bir-birinin arxasınca düzülmüş, başları aşağı, sağ ayaqları öndə, sol ayaqları isə arxada olub, quyruqları yuxarıya qalxmış formada əks etdirilmişdir. Atlar sanki toya, ya da nümayişə gedirlərmiş kimi təəssürat bağışlayır. Toxucular xalçada atların gözəl xarici görünüşlərini

nümayiş etdirərək, onların füsunkar görünüşlərini daha qabarıq göstərirlər. Atlar sırasının aşağı hissəsində yenə də üç bütöv, bir yarımçıq it təsvirləri verilmişdir. İtlər arxa ayaqları üzərində oturub, ön ayaqlarını qarşıya doğru uzatmışlar. Bədənləri yangörünüşlü olub, başları arxaya çevrilmişdir. Sanki arxadan hansısa bir maraqlı səs və yaxud bir heyvan gəlir. Yuxarıda olan atların rənglərində heç bir yarımtonlar olmadığı halda aşağıdakı it rəsmlərinin hansısa bir rəssamın çəkdiyi rəngkarlıq əsərindən götürülməsi şübhəsizdir. Burada rənglər müxtəlifdir. Ayaqları ağ, qara konturlu, kürək hissələri isə tam qaradır. Yan hissələri qırmızı, çəhrayı və qəhvəyi rəngdədir. Quyruqları isə açıq qəhvəyi ilə ağ rəngdə verilmişdir.

**Nəticə.** Beləliklə, xalçanın enli ana haşiyəsi qara yerlikli qırmızı və yaşıl rəngli yarpaqları olan qızılgülün təsvirinin ritmik təkrarı ilə formalaşmışdır. Haşiyə qırmızı rəngli incə zəncirlərlə, arasahənin tam daxilində isə ağ rəngli və dilikli haşiyə ilə əhatələnmişdir. Xalçanın arasahəsinin yuxarı hissəsində ərəb əlifbası ilə yazı və tarix – 1326-cı il tarixi qeyd edilmişdir ki, bu da miladi təqvimlə 1908-ci ilə uyğun gəlir. Xalçanın ipləri süni boyaqlarla boyandığı üçün arasahədəki əbrəşlər aydın görünür.

## ƏDƏBİYYAT


1. Azərbaycan SSR inzibati ərazi bölgüsü. Bakı, Azərnəşr, 1968.
2. Cəfərzadə İ.M. Qobustan. Bakı, Elm, 1973.
3. Kərimov K. Azərbaycan miniatürləri. Bakı, İşıq, 1980.
4. Qarabağ xalçaları. Kataloq. Mətnin müəllifi Abdulova G. Bakı, Ziya, 2013.
5. Müseyibli N. Gəmiqaya. Bakı, Çaşıoğlu, 2004.


**A.Zeynalova**

**The history of 'Horse-dog' carpets in Karabakh and their artistic features**


**Abstract**

In comparison with other regions of Azerbaijan, in Karabakh the design of architectural constructions interior was paid very much attention. İn houses, buildings, khan's palaces especially the wall and ceiling painting was of great importance in artistic design. The decorating of walls by plot carpets was traditional for Azerbaijan, but in Karabakh it was particularly popular and fashionable. İn this article the history of "Horses and dogs" carpets creating, their artistic peculiarities are spoken about.


**А.Зейналова**

**История создания Карабахских ковров «Атлы-итли» и их художественные особенности**


**Аннотация**

Особое внимание в оформлении жилых домов, особняков, ханских дворцов Карабаха уделялось росписи стен и потолков. Украшение стен сюжетными коврами, принятое во всем Азербайджане было в Карабахе особенно модным и популярным. В статье говорится об истории создания настенных ковров «Атлы-итли», их художественных особенностях.